ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# Asiya İnkişaf Bankı Yoxsulluğun Azaldılması Strategiyalarına Gender Komponentinin Daxil Edilməsini Dəstəkləyir

**BAKI, AZƏRBAYCAN (20 Aprel 2005) –** Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi Asiya İnkişaf Bankının (AİB) dəstəyi ilə 2005-ci il aprelin 21-dən 23-ə qədər Bakıda regional görüş təşkil edəcək. Mərkəzi və Şərqi Asiyadan (Qazaxıstan, Tacikistan, Qırğızıstan, Özbəkistan, Monqolustan və Çin) hökumət və vətəndaş təşkilatlarının nümayəndələri gender bərabərliyi məsələlərini milli yoxsulluğun azaldılması üzrə proqramlaşdırmaya daxil edilməsinə dair təcrübə mübadiləsi üçün Bakıya gələcəklər.

Bu görüş Asiya İnkişaf Bankı tərəfindən dörd mərkəzi Asiya respublikasında (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan) maliyyələşdirilmiş texniki yardımın bir hissəsidir. Texniki Yardımın məqsədləri yoxsulluğun azaldılması proqramının həyata keçirilməsində və monitorinqində gender məsələlərinin möhkəmləndirilməsidir. Texniki Yardımın nəticələrinə aşağıdakılar daxildir:

- dörd fərdi Ölkə üzrə Gender Qiymətləndirilmələri,
- Asiya İnkişaf Bankının yoxsulluğun gender ölçüsünü əks etdirə biləcəyi mümkün sahələr haqqında tövsiyələr, və
- yoxsulluğun gender ölçülərinə aid bilikləri artırmaq üçün tədqiqatlar haqqında hesabatlar.

Bu il 1995-ci ildə Pekində keçirilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Qadınların Ümumdünya Konfransının 10-cu ildönümü qeyd olunur. Gender bərabərliyinin fəaliyyətlərin bütün sahələrinə daxil etmək üçün hökumətlər tərəfindən öhdəliklər götürülmüşdür. Nyu Yorkda keçirilən BMT-nın Qadın Statusuna dair komissiyasının 49-cu sessiyasında bir çox sahələrdə inkişafın əldə olunması təsdiq olundu. Gender sahəsindəki çatışmamazlıqları getdikcə daha çox nəzərə çarpır və Minilliyin İnkişaf Məqsədləri və yoxsulluğun azaldılması strategiyaları bu çatışmamazlıqların əks etdirilməsinə monitorinq üçün imkanlar yaradır. Lakin bəzi daha davamlı gender çatışmamazlıqlarını aradan qaldırmaq üçün çox işlər görmək lazımdır.

Bu regional görüş fikir mübadiləsini qurmaq üçün bütün regiondan əsas maraqlı olan tərəfləri bir araya toplamaq üçün imkan yaradacaq və yoxsulluğun azaldılması proqramlaşdırılmasına gender bərabərliyi məsələlərini tam inteqrasiyasını təmin etmək üçün yaxşı təcrübələrin əldə olunmasına şərait yaradacaq. İştirakçılar həmçinin gender məsələlərini necə inteqrasiya etməsini bilavasitə görmək üçün və qeyri-hökumət təşkilatlarının üzvləri və benefisiarlarla təcrübələrini bölüşmək üçün yoxsulluğun azaldılması üzrə layihənin həyata keçirildiyi regiona – Qəbələ rayonuna səfər edəcəklər.

Görüşün nətəcələri eyni problemlərlə üzləşən ölkələrin gender yanaşmanın tətbiq olunmasının praktiki addımlarının əlavə nümunələri olacaq və gender yanaşmanın tətbiqinə təkan vermək üçün yaxşı praktikaya gələcək addım olacaq. Bu görüş həmçinin gender bərabərliyi məsələlərinin həyata keçirilməsində eyni problemlərlə üzləşən Qafqaz, Mərkəzi Asiya və Şərqi Asiya ölkələri arasında əlaqələrin möhkəmləndirilməsi üçün imkanlar yaradacaq. Seminar çərçivəsində əmək bazarı, kənd yoxsulluğunun azaldılması, əmək miqrasiyasının və insan alverinin təsirləri və yaxşı idarəetmənin gender ölçüləri məsələlərinin müzakirəsi daxildir.

*****

Asiya İnkişaf Bankı Mərkəzi Asiya və Sakit okean ölkələrində əhalinin yoxsul təbəqələrinin maraqlarına cavab verən sabit iqtisadi yüksəliş, social inkişaf və zəruri idarəetmə vasitələri ilə yoxsulluğun azaldılmasına yönəldilmişdir. 1966-cı ildə yaradılmış bu təşkilat 45-i bu regiondan olaraq 63 üzvdən ibarətdir. 2003-cü ildə 6.1 $ mlr. dəyərində kredit və 176.5 $ mln. texniki yardım təstiq etmişdir.